# Biri Olmış Reha Dünya İşinden

— *faramarz-abdollahpur* · 17 Eylül 2024




Biri olmış rəha dünya işindən
Biri narazi çərxin gərdişindən
Məne biçarədə hecranə düşdim
Ürək gizlin yanır aşk atəşindən
⚓
Bu dünya hiləsindən canə gəldim
Sinəm dərdli gənə əfğanə gəldim
Həkimlər dərdimin tapmır əlacın
Sənun dərgahivə dərmanə gəldim
⚓
Fəraqundan könul nalan olubdur
Aramızda gənə hecran olubdur
Bu ğəmdən canıma bir od düşibdir
Gecə günduz gözim giryan olubdur
⚓
Mənə dərd yükliyən bu can olubdur
Gəlip bu cismidə zindan olubdur
Diyən yox aləme balani nəy'çun
Buraxmış mülkidə mehman olubdur

⚓

Aman saqi gətir bir mey içim mən
Bu dünya şərru şurindən keçim mən
Belə sərxoş elə huşyardan yey
Ayılmaz yaxçını pisdən seçim mən